AZƏRBAYCAN

2 sentyabr 2024-cü il







# 3 təşkilat, 2500-dən çox seçki məntəqəsi

## Seçkilərin şəffaflığını "exit-poll"da təsdiqlədi

Dünən Azərbaycanda 125 seçki dairəsi üzrə 6478 seçki məntəqəsində parlament seçkiləri keçirildi. Yüksək rəqabət şəraitində keçirilən seçkilərin şəffaflığını beynəlxalq və yerli müşahidəçilər də təsdiq etdilər.





Əlavə edək ki, budəfəki parlament seçkilərində 598 beynəlxalq müşahidəçi akkreditasiyadan keçmişdi. Onlar 51 beynəlxalq təşkilatı və 69 ölkəni təmsil edirdilər.

Ölkəmizdə keçirilən hər bir seçki praktikada tətbiq edilən və demokratiyanın inkişafına xidmət edən yeniliklərlə əlamətdar olur. Bu cür yeniliklərin tətbiqi zamanı xüsusən qeyri-hökumət təşkilatlarına yer verilməsi, onların öz layihələrini həyata keçirmələri üçün lazımi şəraitin yaradılması Azərbaycan dövlətinin seçkilərin demokratik keçirilməsi ilə bağlı siyasi iradəsinin bariz təcəssümüdür. Ölkəmizdə ilk dəfə 2005-ci ilin parlament seçkilərində xarici təşkilatlar tərəfindən seçicilərin seçki məntəqəsində səs verib çıxdıqdan sonra kimə səs vermələrini öyrənmək məqsədilə sorğu - "exit-poll" keçirildi. Sonrakı seçkilərdə də "exit-poll"un keçirilməsi təmin edildi.

Sentyabrın 1-də növbədənkənar parlament seçkilərində də 2500-dən çox seçki məntəqəsində "exit-poll" keçirildi. "Exit-poll"ları Sosioloji Tədqiqatlar Mərkəzi, Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası "Oracle Advisory Group" (Amerika Birləşmiş Ştatları) ilə birgə və "Tərəqqi" Sosial Tədqiqatlar İctimai Birliyi SWG S.P.A Tədqiqatlar Şirkəti (İtaliya) ilə birgə keçirib. "Oracle Advisory Group" şirkəti parlament seçkilərində eyni anda 872 məntəqədə "exit-poll" keçirib. Qeydə alınan nəticələr Nyu Yorkdakı Data Mərkəzində emal olunduqdan sonra axşam saatlarında açıqlanıb.

Günün sonunda isə Mərkəzi Seçki Komissiyası seçkilərin ilkin nəticəsini elan etdi. Üç beynəlxalq təşkilatın həyata keçirdiyi "exit-poll"un nəticələri ilə MSK-nın rəsmi nəticəsi demək olar ki, üst-üstə düşdü. Bu da bir daha təsdiq etdi ki, VII çağırış Milli Məclisə seçkilər demokratik keçirildi.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*